# Legislative Update Newsletter

*December 28, 2018*



Overview of recent changes in the Azerbaijani legislation which could materially impact your business

## Tax and Legal Services

### 1. Monitoring Service under the State Language Commission of the Republic of Azerbaijan to be established

**Document:** Decree of the President of the Republic of Azerbaijan "On the actions regarding the preservation of the purity of Azerbaijani language and improvement of the use of language of the state" (the "Decree")

**Date of signing:** 01 November 2018

**Commentary:** According to the Decree, the purposes of the establishment of the Monitoring Service under the State Language Commission of the Republic of Azerbaijan are to prevent the incorrect and insufficient use of the opportunities of Azerbaijani language, gross violation of the norms of literary language on TV and radio channels, internet resources, press releases and advertising media, not complying with the lexical and grammatical rules, the use of daily language, the improper use of foreign words and expressions and to carry out the legal regulatory and permanent control on this field.

### 2. National Strategy on the improvement of management of domestic solid waste in the Republic of Azerbaijan for the years of 2018-2022 was approved

**Document:** Order of the President of the Republic of Azerbaijan "On the approval of the National Strategy (the "National Strategy") on the improvement of management of domestic solid waste in the Republic of Azerbaijan for the years of 2018-2022" (the "Order")

**Date of signing:** 01 November 2018

**Commentary:** Further to the Order, the purposes of the National Strategy are as following: 1) to expand the services of collection of domestic solid waste to all residential and non-residential areas; 2) to ensure the safe and efficient neutralization of all waste, which is not useful for reproduction and for renewal of new resources; 3) to increase the opportunities of renewal of

resources by sorting, processing and reusing the waste; 4) to manage the potentially dangerous waste in order to reduce the environmental harm and harm to public health; 5) to abolish the dumps, which do not meet the environmental requirements, gradually in order to reduce the negative effects.

Moreover, the National Strategy envisages the consequences of its implementation, which includes the development of the processes of collection, transportation, reproduction and neutralization of domestic solid waste, establishment of domestic solid waste regional sanitary landfills and transfer stations, which will cover the entire republic, reducing the financial support from state budget for management of domestic solid waste, ensuring the public health and durable use of natural resources, increasing the level of employment.

## 3. Innovation Agency to be established under the Ministry of Transport, Communication and High Technologies of the Republic of Azerbaijan

**Document:** Decree of the President of the Republic of Azerbaijan “On the establishment of the Innovation Agency under the Ministry of Transport, Communication and High Technologies of the Republic of Azerbaijan (the “Decree”)

**Date of signing:** 06 November 2018

**Commentary:** Pursuant to the Decree, the Innovation Agency shall be established on the basis of the State Fund for the Development of Information Technologies and the High-Tech Park Limited Liability Company, which are subordinated to the Ministry of Transport, Communication and High Technologies of the Republic of Azerbaijan

The Innovation Agency shall be a public legal entity, which shall assist local business entities in acquiring modern technologies and technological solutions and organizing their transfer, support innovation-oriented scientific research, encourage innovative projects (including startups) by funding them through grants, concessional loans and equity investments and promote innovative initiative.

## 4. The State Program “On increasing the international competitiveness of higher education system in the Republic of Azerbaijan for the years of 2019-2023” was approved

**Document:** Order of the President of the Republic of Azerbaijan “On the approval of the State Program on increasing the international competitiveness of the higher education system in the Republic of Azerbaijan for the years of 2019-2023” (the “State Program”)

**Date of signing:** 16 November 2018

**Commentary:** According to the State Program, some actions will be carried out in order to modernize the content and quality of the higher education system of Azerbaijan, which includes organization of international double-degree programs on the specialties, which are demanded in the country, together with the prestigious higher education institutions of foreign countries in the Republic of Azerbaijan, the preparation of educational programs on relevant specialties, which shall be subject to international double-degree programs at the higher education institutions of the Republic of Azerbaijan on the basis of the experiences of foreign higher education systems, adaptation of development indicators of the higher education institutions of the Republic of Azerbaijan, where international double-degree programs will be carried out,

the preparation of the criteria and procedures of selection of foreign partner higher education institutions, which the double-degree programs will be carried out with, involvement of Azerbaijani professionals who work at foreign higher education institutions in labour activity at higher education institutions of the Republic of Azerbaijan, where the international double-degree programs will be carried out and other actions.

## 5. Law of the Republic of Azerbaijan “On suspension of inspections of entrepreneurial activities” was amended

**Document:** Law of the  Republic of Azerbaijan on making amendments to the Law of the Republic of Azerbaijan “On suspension of inspections of entrepreneurial activities” (the “Law”)

**Date of signing:** 30 November 2018

**Commentary:** As per the amendment, the Law of the Republic of Azerbaijan “On suspension of inspections of entrepreneurial activities” shall not apply to the inspections carried out to oversee the compliance with the requirements of the Law “On the prevention of the legalization of criminally obtained funds or other property and the financing of terrorism”.

In other words, it is allowed to carry out inspections of entrepreneurial activities to check the compliance with the requirements of the Law of the Republic of Azerbaijan “On the prevention of the legalization of criminally obtained funds or other property and the financing of terrorism”.

## 6. Consitutional law of the Republic of Azerbaijan “On normative legal acts” was amended

**Document:** Constitutional law of the Republic of Azerbaijan on making amendments to the Constitutional law of the Republic of Azerbaijan “On normative legal acts”  (the “Constitutional law”)

**Date of signing:** 07 December 2018

**Commentary:**  As per the Constitutional law, different legal regulatory regime will be applied on the territory of free economic zone of Alat (‘Free Zone”). By the amendment it was approved that the relations related to the activity of the Free Zone shall be regulated in accordance with the Free Zone legislation, and in case of collisions between the legislation of the Republic of Azerbaijan and of Free Zone, the latter shall be applied.

## 7. Level of the need criterion in the Republic of Azerbaijan for 2019 was approved

**Document:** Law of the Republic of Azerbaijan on the level of the need criterion in the Republic of Azerbaijan for 2019 (the “Law”)

**Date of signing:** 30 November 2018

**Commentary:**  According to the Law, level of the need criterion is set at one hundred and forty three (143) manats for 2019.

## 8. Living minimum wage in the Republic of Azerbaijan for 2019 was approved

**Document:** Law of the Republic of Azerbaijan on the living minimum wage in the Republic of Azerbaijan for 2019 (the "Law")

**Date of signing:** 30 November 2018

**Commentary:** In accordance with the Law, for 2019, the living minimum wage across the country is set at one hundred and eighty (180) manats, for the working population at one hundred and ninety one (191) manats, for pensioners at one hundred and forty nine (149) manats, and for children at one hundred and sixty (160) manats.

## 9. Criminal Code of the Republic of Azerbaijan was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Criminal Code of the Republic of Azerbaijan (the "Law")

**Date of signing:** 30 October 2018

**Commentary:** As per the Law, a person involving a large number (10 and more) of employees to perform any work (services) without having labor contracts entered into force as prescribed in the Labor Code of the Republic of Azerbaijan, shall be released from criminal liability if this person (1) has entered into an employment contract with those employees, and (2) has fully paid taxes and contributions on unemployment insurance and compulsory state social insurance which this person evaded. Such person may be released from such criminal liability only once.

## 10. The Law of the Republic of Azerbaijan "On labor pensions" was amended

**Document:** Law of the Republic of Azerbaijan on making amendments to the Law "On labor pensions" of the Republic of Azerbaijan (the "Law")

**Date of signing:** 30 November 2018

**Commentary:** According to the Law, labor pensions shall be assigned in an automated way beginning from 01 January 2019. By the Law, method of calculation of contribution years of social insurance was changed. Beginning from 2019, during automated assignment of pensions, except those cases envisaged in the legislation, contribution years of social insurance of insured till 01 January 2006 shall be calculated as below, if insurance part of the individual account of the insured contains registered pension capital for the term till 01 July 2018:

- During assignment of old-age pension to the insured who reached retirement age determined in the legislation in 2019-2020, 25 contribution years shall be automatically calculated as his contribution years of social insurance till 01 January 2006. In other words, it will be considered that he had 25 contribution years of social insurance till 01 January 2006. Beginning from 2021, each year, above mentioned figure shall be decreased by one (1) year.

- During assignment of disability pension to a disabled person, his contribution years of social insurance till 01 January 2006 shall be calculated based on the method of adding 4 month for each year when he was capable to work.
- During assignment of pension for loss of breadwinner contribution years of social insurance of the person died which was not a pensioner, shall be calculated based on the method of adding 4 month for each year when he was capable to work.

  If actual contribution years of social insurance of the person having right for pension, till 01 January 2006 is more than the contribution years of social insurance calculated in the way mentioned above, at their discretion, their actual contribution years of social insurance shall be taken into account while assigning the pension.

## 11. “Criteria for micro, small, medium and large enteprises” were approved

**Document:** Decree of the Cabinet of Ministers of the Republic of Azerbaijan “On approval of criteria for micro, small, medium and large enterprises” (the “Decree”)

**Date of signing:** 21 December 2018

**Commentary:** In accordance with the Decree, category of enterprises shall be determined based on the “number of employees” and “annual income” criteria. If an enterprise is newly established, its category shall be determined by considering the number of its employees for one (1) year from the date of state registration or registration for tax purposes. As per the Decree, necessary information about enterprises shall be submitted by the Ministry of Taxes and Ministry of Labor and Social Protection of Population of the Republic of Azerbaijan to the State Statistical Committee of the Republic of Azerbaijan. On the basis of submitted information, the latter shall provide categorization of enterprises and transfer the result to “united information registry of inspections of entrepreneurial activities”.

| **Categories of enterprises** | **Number of employees** (person) | **Annual income (AI)** (thousand manats) |
|---|---|---|
| Micro enterprises | 1 - 10 | AI ≤ 200 |
| Small enterprises | 11 – 50 | 200 < AI ≤ 3 000 |
| Medium enterprises | 51 - 250 | 3 000 < AI ≤ 30 000 |
| Large enterprises | 251 and over | 30 000 < AI |

When determining the category of enterprises, the higher criteria shall be considered.

## 12. The charter, structure, list of services of the Agency for Sustainable and Operational Social Security and procedure for providing these services were approved.

**Document:** Decree of the President of the Republic of Azerbaijan on ensuring the activity of the Agency for Sustainable and Operational Social Security (“Agency”) (“Decree”)

**Date of signing:** 10 December 2018

**Commentary:** According to its Charter, the Agency shall operate under the Ministry of Labor and Social Protection of Population. The structure of the Agency shall consist of its Administration and “DOST” centers. “DOST” centers shall provide a number of services in the field of labor relations, disability, employment, labor pension and social security, targeted social assistance, individual registration and deregistration of the insured, including auxiliary services such as bank services, legal assistance, insurance services and so on. “DOST” centers shall provide direct (on-site) service, self-service, call center service and mobile service.

# Our key contacts





**Murat Karakas**

Managing Partner

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru

**Farid Isayev**

Head of Tax and Legal Department

T +994 12 404 8910
E fisayev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

*Dekabr 28, 2018*

English version ♦ Bütün dəyişikliklər ♦ Xidmətlərimiz ♦ Media ♦ Əlaqə

Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi” publik hüquqi şəxsi yaradılır

**Sənəd:** “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“Fərman”)

**İmzalanma tarixi:** 01 noyabr 2018-ci il

**Şərh:** Fərmana əsasən, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılmasında əsas məqsəd Azərbaycan dilinin imkanlarından yetərincə və düzgün istifadə edilməməsi, televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsinin qarşısının alınması və bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarəti həyata keçirməkdir.

### 2. 2018-2022-ci illər üçün Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair Milli Strategiya təsdiq edildi

**Sənəd:** “Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018–2022-ci illər üçün Milli Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (“Sərəncam”)

**İmzalanma tarixi:** 01 noyabr 2018-ci il

**Şərh:** Sərəncama əsasən Milli Strategiyanın əsas məqsədləri sırasına aşağıdakılar daxildir: 1) bərk məişət tullantılarının yığılması xidmətlərinin Azərbaycan Respublikasındakı bütün yaşayış və qeyri-yaşayış müəssisələrinə doğru genişləndirilməsi; 2) çeşidlənib yeni məhsul

əldə edilməsi baxımından sərfəli olmayan və yeni ehtiyatların bərpasına sərf edilə bilməyən bütün tullantıların təhlükəsiz və səmərəli zərərsizləşdirilməsinin təmin edilməsi; 3) çeşidləmə, emal və tullantılardan təkrar istifadə yolu ilə ehtiyatların bərpa edilməsi potensialının artırılması; 4) ictimai sağlamlığa və ətraf mühitə dəyən zərərin azaldılması məqsədilə potensial təhlükəli tullantıların idarə edilməsi; 5) mənfi təsirləri azaltmaq məqsədilə ekoloji tələblərə cavab verməyən açıq zibilliklərin tədricən ləğv edilməsi.

Bundan əlavə, Milli Strategiya müvafiq tədbirlərin həyata keçirilməsinin bir sıra nəticələrini də özündə əks etdirir ki, bunların sırasına bərk məişət tullantılarının yığılması, daşınması, təkrar emalı və zərərsizləşdirilməsi proseslərinin təkmilləşdirilməsi, respublikanın bütün ərazisini əhatə edəcək bərk məişət tullantılarının regional sanitariya poliqonlarının və ötürücü məntəqələrin yaradılması, bərk məişət tullantılarının idarə edilməsi üçün dövlət büdcəsindən ayrılan maliyyə yardımının mərhələli şəkildə azaldılması, ictimai sağlamlığın təmin edilməsi, ətraf mühitə mənfi təsirlərin azaldılması və təbii sərvətlərdən davamlı istifadə edilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması kimi mühüm nəticələr daxildir.

## 3. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyi yaradılır

**Sənəd:** Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“Fərman”)

**İmzalanma tarixi:** 06 noyabr 2018-ci il

**Şərh:** Fərmana əsasən İnnovasiyalar Agentliyi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və “Yüksək Texnologiyalar Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında yaradılacaqdır.

Yeni yaradılacaq İnnovasiyalar Agentliyi publik hüquqi şəxs statusuna malik olmaqla yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların əldə olunmasında yardım göstərəcək və onların transferini təşkil edəcək, innovasiya yönümlü elmi tədqiqatları dəstəkləyəcək, innovativ layihələri (o cümlədən, startapları) təşviq edəcək, onları qrant, güzəştli kredit və nizamnamə kapitalına sərmayə vasitəsilə maliyyələşdirəcək, eləcə də, innovasiya təşəbbüskarlığını təbliğ edəcəkdir.

## 4. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə” Dövlət Proqramı təsdiq olunub

**Sənəd:** “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İmzalanma tarixi: 16 noyabr 2018-ci il

Şərh: Dövlət Proqramına əsasən Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyətinin müasirləşdirilməsi üçün bir sıra tədbirlərin görülməsi nəzərdə tutulur ki, bunlar sırasına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ölkənin ehtiyac duyulan ixtisaslar üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birgə beynəlxalq ikili diplom proqramlarının təşkili, beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi Azərbaycan Respublikası

ali təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə tədris proqramlarının xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanması; beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi Azərbaycan Respublikası ali təhsil müəssisələrinin inkişaf göstəricilərinin beynəlxalq reytinqlərin tələblərinə uyğunlaşdırılması, beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin seçilməsi prosedurları və meyarlarının hazırlanması, xarici ali təhsil müəssisələrində çalışan azərbaycanlı mütəxəssislərin beynəlxalq ikili diplom proqramlarının təsis edildiyi Azərbaycan Respublikası ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb edilməsinin təmin olunması və digər tədbirlər daxildir.

## 5. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi

**Sənəd:** “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 30 noyabr 2018-ci il

**Şərh:** Qanuna əsasən, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Qanun “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun tələblərinə əməl edilməsinə nəzarət məqsədilə həyata keçirilən yoxlamalara aid edilməyəcək.

Başqa sözlə, bu dəyişikliklə sahibkarlıq sahəsində “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun tələblərinə əməl edilməsinə nəzarət məqsədilə yoxlamaların keçirilməsinə icazə verilir.

## 6. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edildi

**Sənəd:** “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (“Konstitusiya Qanunu”)

**İmzalanma tarixi:** 7 dekabr 2018-ci il

**Şərh:** Konstitusiya Qanununa əsasən, Ələt azad iqtisadi zonasının (“Azad Zona”) ərazisində fərqli hüquqi tənzimləmə rejimi tətbiq ediləcək. Bununla, Azad Zonanın fəaliyyəti ilə bağlı olan münasibətlərin Azad Zona qanunvericiliyi ilə tənzimlənməsi, o cümlədən Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə Azad Zona qanunvericiliyi arasında ziddiyyət olduğu halda Azad Zona qanunvericiliyinin tətbiq ediləcəyi təsdiq edilmiş oldu.

## 7. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi təsdiq olundu

**Sənəd:** Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 30 noyabr 2018-ci il

**Şərh:** Qanuna əsasən, 2019-cu il üçün ehtiyac meyarının həddi bir yüz qırx üç (143) manat məbləğində müəyyən edilmişdir.

## 8. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu təsdiq edildi

**Sənəd:** Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 30 noyabr 2018-ci il

**Şərh:** Qanunla 2019-cu il üçün yaşayış minimumu ölkə üzrə bir yüz səksən (180) manat, əmək qabiliyyətli əhali üçün bir yüz doxsan bir (191) manat, pensiyaçılar üçün bir yüz qırx doqquz (149) manat, uşaqlar üçün bir yüz altmış (160) manat məbləğində müəyyən edilmişdir.

## 9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişiklik edildi

**Sənəd:** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 30 oktyabr 2018-ci il

**Şərh:** Qanuna əsasən, əmək müqaviləsi Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada hüquqi qüvvəyə minmədən xeyli sayda (on nəfər və ondan çox sayda) işçiləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb etmiş şəxs sonradan (1) həmin işçilərlə əmək müqaviləsi bağlayarsa və (2) ödəməkdən yayındığı vergiləri və işsizlikdən sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödəyərsə cinayət məsuliyyətindən azad ediləcək. Belə şəxs yalnız bir dəfə cinayət məsuliyyətindən azad edilə bilər.

## 10. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi

**Sənəd:** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ("Qanun")

**İmzalanma tarixi:** 30 noyabr 2018-ci il

**Şərh:** Qanuna əsasən, 2019-cu il yanvarın 1-dən etibarən əmək pensiyaları avtomatlaşdırılmış qaydada təyin ediləcək.
Qanunla, sığortaolunanların 2006-cı il yanvarın 1-dək olan sığorta stajının hesablanması qaydasında da dəyişiklik edilmişdir. Belə ki, 2019-cu ildən etibarən əmək pensiyası avtomatlaşdırılımış qaydada təyin edilərkən, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin fərdi hesabının sığorta hissəsində 2018-ci ilin 1 iyul tarixinə qeydə alınmış

pensiya kapitalı olduqda, onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajı aşağıdakı qaydada hesablanacaq:

- Yaşa görə əmək pensiyasının təyin edilməsi zamanı: 2019-2020-ci illərdə qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatmış sığortaolunanlara yaşa görə əmək pensiyası təyin edilərkən, şəxsin 2006-cı il yanvarın 1-dək olan sığorta stajı 25 il olaraq hesablanacaq. 2021-ci ildən etibarən isə qeyd olunan staj hər təqvim ili üçün bir il azaldılmaqla hesablanacaq.
- Əlilliyə görə əmək pensiyasının təyin edilməsi zamanı: əlilliyi müəyyən edilmiş şəxsə əlilliyə görə əmək pensiyası təyin edilərkən onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajı həmin dövrə olan əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay olaraq hesablanacaq.
- Ailə başçısını itirməyə görə əmək pensiyasının təyin edilməsi zamanı: ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı il yanvarın 1-dək olan sığorta stajı həmin dövrə olan əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay olaraq hesablanacaq.

Əgər əmək pensiyası hüquq olan şəxslərin 2006-cı il yanvarın 1-dək faktiki sığorta stajı yuxarıda qeyd olunan qaydada hesablanmış sığorta stajından çox olarsa, onların arzusuna əsasən pensiya təyin edilərkən faktiki sığorta stajı nəzərə alınır.

## 11. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edildi

**Sənəd:** "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ("Qərar")

**İmzalanma tarixi:** 21 dekabr 2018-ci il

**Şərh:** Qərara əsasən, sahibkarların bölgüsünün aparılması üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyarlarından istifadə ediləcəkdir. Əgər sahibkarlıq subyekti yeni yaradılmışdırsa, bu halda onun hansı bölgüyə aid edilməsi dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən bir (1) il müddətinə müəyyən edilmiş işçilərin say göstəricisi nəzərə alınmaqla müəyyən ediləcək. Qərara əsasən, sahibkarlıq subyektləri barəsində lazımi məlumatlar Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edilir. Bu məlumatlar əsasında sonuncu sahibkarların bölgüsünü təşkil edərək "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nə ötürülməsini təmin edəcək.

| **Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları** | **İşçilərinin orta siyahı sayı** (nəfər) | **İllik gəliri (İG)** (min manat) |
|---|---|---|
| Mikro sahibkarlar | 1 - 10 | İG ≤ 200 |
| Kiçik sahibkarlar | 11 – 50 | 200 < İG ≤ 3 000 |
| Orta sahibkarlar | 51 - 250 | 3 000 < İG ≤ 30 000 |
| İri sahibkarlar | 251 və ondan yuxarı | 30 000 < İG |

Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürüləcəkdir.

### 12. Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi, strukturu, göstərəcəyi xidmətlərin siyahısı və bu xidmətlərin göstərilməsi qaydası təsdiq edildi

**Sənəd:** Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin ("Agentlik") fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Fərman")

**İmzalanma tarixi:** 10 dekabr 2018-ci il

**Şərh:** Agentliyin Nizamnaməsinə əsasən, o, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Agentliyin strukturu onun Aparatından və "DOST" mərkəzlərindən ibarətdir. "DOST" mərkəzlərində əmək münasibətləri, əlillik və sağlamlıq imkanlarının məhdudluğu sahəsində, məşğulluq, əmək pensiyası və sosial müavinət sahələrində, ünvanlı dövlət sosial yardımın təyin edilməsi, sığortaolunanların fərdi uçota alınması və uçotdan çıxarılması sahəsində xidmətlər, o cümlədən bank xidmətləri, hüquqi yardım xidmətləri, sığorta xidmətləri və s. kimi funksional yardımçı xidmətlər göstəriləcəkdir. Mərkəzdə xidmətlər birbaşa (yerində), özünəxidmət, "çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formasında təşkil ediləcəkdir.

## Bizimlə əlaqə




**Murat Karakaş**

İdarəedici Partnyor

T +994 12 404 8910
E MuratKarakas@kpmg.ru



**Fərid İsayev**

Direktor,
Vergi və Hüquq
Departamentinin rəhbəri

T +994 12 404 8910
E fisayev@kpmg.az

| | |
|---|---|
| www.kpmg.az | Privacy \| Legal<br><br>You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.<br><br>If you have any questions, please send an e-mail to office@kpmg.az.<br><br>KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan<br><br>© 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.<br><br>The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International. © 2018 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved. |